

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 137 (21.289)

15 iyul 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 5 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 115 ünvanında yerləşən mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verildi ki, ilk dəfə bu mərkəzdə "ASAN ECO oturacaq"lar quraşdırılıb. Bunların hər biri ASAN loqosu formasında olan Günəş panelləri ilə təchiz olunub. Qurğuya yerləşdirilmiş modem vasitəsilə isə internetdən pulsuz yararlanmaq imkanı var.

5 saylı "ASAN xidmət" mərkəzinin ikimərtəbəli binasında ən yüksək standartlar tətbiq olunub.

Prezident İlham Əliyev yeni xidməti işə saldı.

## Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin yeni binası istifadəyə verilmişdir





1969-cu il iyulun 14-də ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycan yeni inkişaf mərhələsinə yüksəlmişdir. Bu dövrdən etibarən ölkəmizdə iqtisadi və sosial həyatın bütün sahələrində kompleks tədbirlər görülmüş, Azərbaycanın gələcək müstəqilliyinin əsası qoyulmuşdur. Bu yüksəliş və tərəqqi səhiyyə sisteminin də inkişafına səbəb olmuşdur. Ulu öndərin rəhbərliyi ilə həmin dövrdə ölkəmizin bütün şəhər, rayon və kəndlərində yeni xəstəxanalar istifadəyə verilmiş, əhalinin sağlamlığının qorunmasına xidmət edən ardıcıl tədbirlər görülmüşdür. Dahi şəxsiyyətin müəllifi olduğu səhiyyə islahatları bu gün də ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir, müasir avadanlıqlarla təmin olunmuş tibb müəssisələri tikilərək əhalinin istifadəsinə verilir.

İyulun 14-də, ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə gəlməsinin 46-cı ildönümündə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması xidmətin səviyyəsini xeyli yaxşılaşdırmışdır. İxtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması isə vətəndaşların sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. Təkcə 2014-cü ildə və 2015-ci ilin 6 ayı ərzində muxtar respublikada, ümumilikdə, 18 səhiyyə müəssisəsi tikilmiş, 3 müəssisə yenidən qurulmuşdur. Yoluxucu Xəstəliklər Mərkəzi üçün yeni tikilmiş bina da həyata keçirilən səhiyyə quruculuğu tədbirlərinin davamıdır. Niyazi Novruzov səhiyyə sisteminin müasirləşdirilməsi və əhalinin sağlamlığının qorunması sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublikanın səhiyyə işçiləri adından minnətdarlıq etmişdir.

Həkim-reanimatoloq Xeyrənsə Babayeva demişdir ki, Yoluxucu Xəstəliklər Mərkəzi əvvəllər lazımi tibbi avadanlıqlarla təchiz olunmayan köhnə binada, eləcə də şəhərin mərkəzində yerləşirdi. Bu da əhaliyə göstərilən tibbi xidmətin və aparılan profilaktik tədbirlərin səviyyəsini aşağı salırdı. Mərkəzin yeni binası ekoloji cəhətdən sağlam ərazidə tikilmiş və lazımi tibbi avadanlıqlarla təchiz edilmişdir. Burada yaradılan şərait kollektivin səmərəli fəaliyyət göstərməsinə, səhiyyə xidmətinin nümunəvi təşkilinə, insanların sağlamlığının etibarlı şəkildə qorunmasına imkan verəcəkdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada vacib sahələrdən biri olan Yoluxucu Xəstəliklər Mərkəzinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişafın tərkibində əhalinin sağlamlığının qorunması mühüm yer tutur. Ölkəmizin hər bir bölgəsində diaqnostika-müalicə mərkəzləri, xəstəxanalar tikilərək istifadəyə verilmiş, tibb müəssisələri müasir səhiyyə avadanlıqları ilə təmin edilmiş, həkimlərin peşə hazırlığı diqqət mərkəzində saxlanılmışdır. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da səhiyyənin inkişafına xüsusi diqqət yetirilir. Son illər muxtar respublikada səhiyyə sistemi əsaslı şəkildə yenidən qurulmuşdur. Ötən dövrdə şəhər, rayon və kəndlərdə 200-dən artıq səhiyyə müəssisəsinin tikilib istifadəyə verilməsi, onların lazımi tibbi avadanlıqlarla və ixtisaslı kadrlarla təmin olunması muxtar respublika səhiyyəsinin tamamilə müasirləşdirilməsinə səbəb olmuşdur.

Ali Məclisin Sədri demişdir: Səhiyyə sistemində quruculuq tədbirlərinin həyata keçirilməsi, müasir iş şəraitinin yaradılması işin bir tərəfidir. İşin əsas tərəfi isə yaradılmış tibb müəssisələrinin təyinatı üzrə fəaliyyətini təmin etməkdən ibarətdir. Səhiyyə müəssisələrinin kollektivləri insanların xəstələnib onlara müraciət etməsini gözləməməlidirlər. Onlar xəstəliklərin vaxtında qarşısının alınması üçün tədbirlər görməli, əhali arasında olmalı, maarifləndirmə işinə üstünlük verməlidirlər. Bu gün istifadəyə verilən Yoluxucu Xəstəliklər Mərkəzinin də əsas təyinatı əhalini bu xəstəliklərə yoluxduqdan sonra müalicə etmək deyil, onların bu xəstəliklərə yoluxmamaları üçün vaxtında maarifləndirmə və profilaktiki tədbirlərin aparılmasından ibarət olmalıdır. Muxtar respublikada bu işlərin görülməsi üçün geniş imkanlar vardır. Həkimlər televiziya və qəzet vasitəsilə çıxışlar etməli, müvafiq təşkilatlarda maarifləndirici söhbətlər aparmalıdırlar. Mərkəzdə fəaliyyət göstərən yoluxucu xəstəliklər, QİÇS-lə mübarizə və dəri-zöhrəvi xəstəlikləri şöbələri üzrə hər hansı bir xəstəlik aşkarlandığı zaman həmin xəstələr dərhal qeydiyyata alınaraq müalicəyə cəlb olunmalı, aid nazirliklər xəstəliyin aşkarlandığı ərazini və həmin xəstəni ciddi nəzarətdə saxlamalıdırlar.

Ali Məclisin Sədri demişdir: Sosial-iqtisadi inkişafın əhatə dairəsinin genişləndirilməsi, səhiyyədə yenidənqurmanın ardıcıl xarakter alması ona görə mümkün olur ki, Azərbaycanda ulu öndər Heydər Əliyevin yolu uğurla davam etdirilir. Ölkəmizdə iqtisadi inkişaf və sabitlik vardır. Ən əsası isə Azərbaycan 1969-cu il 14 iyul tarixindən ulu öndərimizin siyasi yolu ilə gedərək bugünkü inkişafa qovuşub. 14 iyul hər bir Azərbaycan vətəndaşının həyatında unudulmaz tarixi gündür. Ona görə ki, bu tarix Azərbaycanın yenidən dünyaya gəlməsi, özünəqayıdış tarixidir. Azərbaycanın inkişafının və gələcək uğurlu yolunun əsasının qoyulduğu gündür. Belə bir əlamətdar gündə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin yeni binasının istifadəyə verilməsi də ulu öndərin yoluna sədaqətin və bu yolun uğurla davam etdirilməsinin nəticəsində mümkün olmuşdur.

Ali Məclisin Sədri kollektivi və muxtar respublika əhalisini ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə gəlməsinin ildönümü münasibətilə təbrik etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, mərkəzin yeni binası 4 mərtəbədən ibarətdir. Binada müasir iş və sinif otaqları, laboratoriyalar, palatalar və ayrı-ayrı kabinələr olmaqla, 154 otaq vardır.

Ardı 2-ci səhifədə

Mərkəzdə yoluxucu xəstəliklər, QİÇS-lə mübarizə və dəri-zöhrəvi xəstəlikləri şöbələri fəaliyyət göstərəcəkdir. Binanın əlavə girişlərinin olması xəstələrin şöbələr üzrə qəbuluna imkan verəcəkdir.

Binada tibbin ən son yenilikləri tətbiq olunmuş, müasir avadanlıqlar quraşdırılmışdır. Mərkəz mobil rentgen qurğusu, avtoklav, quru hava sterilizatorları, bakteriosid lampalar, deionizə su qurğusu ilə təchiz edilmişdir. Reanimasiya üçün süni tənəffüs, EKQ aparatları, funksional çarpayılar, defibrillyator, pulsoksimetr, oksigen konsentratoru, fizioterapiya üçün isə fototerapiya, D'Arsonval, ultrasəs və ultrayüksək tezlikli elektroterapiya cihazları və digər avadanlıqlar qoyulmuşdur.

Mərkəzdə fəaliyyət göstərən laboratoriyalar da müasir tibbi tələblər nəzərə alınmaqla qurulmuşdur. Burada hemotoloji, immunoferment, biokimya, PZR analizatorları, spektrofotometr, qlükometr, luminisent və binokulyar mikroskoplar, sentrifuqa, termostat, su distillə sistemi və digər avadanlıqlar vardır. Bu da analizlərin dəqiq aparılmasına, müayinə və müalicə üçün düzgün diaqnoz qoyulmasına imkan verəcəkdir.

Ali və orta ixtisas məktəblərinin tibb ixtisası tələbələrinin dərs keçməsi üçün nəzərdə tutulan sinif otaqları proyektorlarla təmin edilmişdir. Həmçinin binada xəstələrin və tibbi heyətin rahatlığı da nəzərə alınmış, elektron çağırış sistemi yaradılmışdır.

Bina mərkəzi qaz və kompüter şəbəkəsi, istilik və su sistemləri ilə təchiz olunmuş, lift quraşdırılmışdır.

Bina ilə tanışlıqdan sonra kollektivlə görüşən Ali Məclisin Sədri demişdir ki, 1926-cı ildə əsası qoyulan Yoluxucu Xəstəliklər Mərkəzi uzun müddət uyğunlaşdırılmış binalarda fəaliyyət göstərmişdir. Lakin bu gün Yoluxucu Xəstəliklər Mərkəzinin yeni binasında kollektiv üçün lazımi iş şəraiti yaradılmışdır. Eyni zamanda binanın yerləşdiyi ərazi və malik olduğu tibbi avadanlıqlar xəstələrin müalicəsinin hərtərəfli təşkilinə imkan verəcəkdir. Bu sahədə çalışan həkim və tibb işçiləri də səhiyyə maarifi işini və profilaktika tədbirlərini gücləndirməlidirlər.

Ali Məclisin Sədri demişdir: Mərkəzdə yaradılan şərait, istifadəyə verilən sinif otaqları bu sahə üzrə tibbi kadrların hazırlanmasına da şərait yaradıb. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində təhsil alan tələbələr mərkəzdə dərslər və təcrübi məşğələlər keçməli, ixtisaslı kadrlar kimi hazırlanmalıdırlar.

Mərkəzin həkimi Sevil İbrahimova yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Müasir görkəmli ilə seçilən binanın həyətində də geniş abadlıq işləri görülmüşdür. Burada çirkab suların təmizlənməsi və tibbi tullantıların yandırılması üçün xüsusi qurğular qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin 46-cı ildönümü qeyd olunub



*Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı iyulun 14-də Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasının 46-cı ildönümünə həsr olunmuş "Milli istiqlalın və intibahın başlandığı gün" mövzusunda elmi konfrans keçirmişdir.*

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev "Ümummilli lider Heydər Əliyev və Azərbaycan" mövzusunda çıxış edərək demişdir ki, görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz həyatının bütün dövrlərində xalqı və dövləti üçün fəaliyyət göstərməyi ömrünün başlıca qayəsi hesab etmiş, Vətənə, xalqa sədaqətlə və yorulmaz xidmətin müstəsna nümunəsini yaratmışdır. 1969-cu ildə Azərbaycan özünün böhranlı günlərini yaşayanda da, 1993-cü ildə dövlət müstəqilliyimiz məhvə sürükləndəndə də dahi Heydər Əliyev böyük xilaskarlıq missiyası ilə Azərbaycanı bütün sınaqlardan çıxarmışdır.

Ulu öndər XX əsrin 70-ci illərində Azərbaycanda bu gün müstəqil dövlətçiliyin prioritet inkişaf istiqamətini və ideoloji əsaslarını təşkil edən sürətli iqtisadi inkişaf və milli həmrəylik konsepsiyasının nəzəri-praktik əsaslarının yaradılması sahəsində misilsiz işlər görmüşdür. Bu mənada, ümummilli liderimizin bugünkü və gələcək nəsillər üçün ən qiymətli əmanəti və şah əsəri olan müstəqil Azərbaycan ideyasının yaradılması və həyata keçirilməsi ulu öndər Heydər Əliyevin bütün siyasi fəaliyyətinin başlıca ülvi amalı olmuşdur.

YAP Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva "Ulu öndər Heydər Əliyev və Naxçıvan" mövzusunda çıxışında bildirmişdir ki, ümummilli liderin bütün həyatı və fəaliyyəti Naxçıvanla daim sıx bağlı olmuşdur. Belə ki, Azərbaycana birinci rəhbərliyi dövründə görkəmli dövlət xadimi Heydər Əliyev dəfələrlə Naxçıvana gəlmiş, hər səfərində müxtəlif məsələləri araşdıraraq muxtar respublikanın hərtərəfli inkişafını şərtləndirən mühüm tədbirlər həyata keçirmişdir. Bu mənada, ulu öndərin Azərbaycanın müstəqilliyi yolunda müzəffər yürüşünün başlanğıcı olan 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb yaratdığı, siyasi fəaliyyətlə məşğul olduğu və muxtar respublikamıza başçılıq etdiyi dövr Azərbaycanın müstəqillik tarixində xüsusi mərhələ təşkil edir. Böyük öndər taleyüklü bir dövrdə Naxçıvanın təhlükəsizliyini uğurlu diplomatik gedişləri ilə təmin etmiş, ərazi bütövlüyünü qətiyyətlə qorumuşdur.

Sonra ümummilli lider Heydər Əliyevə həsr olunmuş film nümayiş etdirilmişdir.

YAP Naxçıvan Şəhər Təşkilatı İdarə Heyətinin iclasında partiya sıralarına 53 nəfər yeni üzv qəbul olunmuşdur.

Sonda konfrans iştirakçıları Heydər Əliyev Muzeyindəki eksponatlarla yaxından tanış olmuşlar.

***Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında da ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin 46-cı ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov bildirmişdir ki, 1969-1982-ci illər Azərbaycan tarixinin inkişaf, tərəqqi və intibah dövrüdür. Ulu öndər Heydər Əliyev uzaqgörən siyasəti ilə hələ sovet dönəmində ölkəmizin yeraltı və yerüstü sərvətlərindən səmərəli istifadə olunmasını təmin etmiş, insanların yaşayış səviyyəsinin yüksəlməsinə nail olmuş, müstəqilliyə zəmin hazırlamışdır. Azərbaycana rəhbərlik etdiyi illər ərzində minilliklər boyu əldə edilməsi mümkün olmayan nailiyyətləri gerçəkləşdirməyi bacaran dahi şəxsiyyət Heydər Əliyev keçmiş SSRİ dövlətinin rəhbərlərindən biri kimi fəaliyyət göstərdiyi dövrdə də doğma Azərbaycanın inkişaf və çiçəklənməsinə, əhalinin rifah halının daha da yüksəldilməsinə çalışmışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanı düşdüyü fəlakətlər girdabından xilas edən ümummilli liderimizin səyi nəticəsində dövlət müstəqilliyimiz əbədi, dönməz xarakter almışdır.

Qeyd edilmişdir ki, Babək rayonunun yaradılması ulu öndərin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərinin sonunda dahi rəhbərin uzaqgörən siyasəti, ciddi səyi ilə həyata vəsiqə alan bu bölgə bu gün ölkəmizin müasir rayonları sırasındadır. Babək qəsəbəsində, kənd yaşayış məntəqələrində aparılan kompleks quruculuq tədbirləri hesabına rayon öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. İstifadəyə verilən emal və istehsal müəssisələri rayonda əhalinin məşğulluğunun təmin olunmasına hərtərəfli şərait yaratmışdır. Bütün bunlar ulu öndərin müəyyənləşdirdiyi siyasətin Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilməsinin əyani ifadəsidir.

Tədbirdə rayon Ağsaqqallar Şurasının sədri Vaqif Hüseynov, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Qadınlar Şurasının üzvü, Payız kənd tam orta məktəbinin direktoru Turan Məmmədli və təşkilatın şura üzvü, Şəkərabad kənd tam orta məktəbinin direktoru Sədaqət Mahmudov və başqaları çıxış etmişlər.

## Ümummilli lider Heydər Əliyev və Azərbaycanda mətbuatın inkişafı

*Bu mövzuda AMEA Naxçıvan Bölməsində elmi konfrans keçirilmişdir*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" 2 iyun 2015-ci il tarixli Sərəncam imzalamış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 10 iyun tarixli Sərəncamı ilə "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər planına əsasən, dünən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Mətbuat Şurasının təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda mətbuatın inkişafı" mövzusunda elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirmişdir ki, 1875-ci il iyulun 22-də görkəmli ziyalı Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli-mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır.



Qeyd olunmuşdur ki, Azərbaycan mətbuatının inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi mətbuatın inkişafı ilə bağlı onlarla fərman və sərəncam imzalamış, mətbuat işçilərinin normal fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmasını diqqətdə saxlamışdır. Ulu öndərin bu istiqamətdə müəyyənləşdirdiyi siyasət bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir.

Konfransda Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynovun "Ümummilli lider Heydər Əliyev söz, fikir və mətbuat azadlığının təminatçısıdır", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun "Azərbaycan milli mətbuatının yaranması və inkişafı", "Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərovun "Naxçıvanda mətbuatın inkişafı: 1990-1993-cü illər", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Rafiq Babayevin "Milli mətbuat tarixinin bəzi məsələləri", Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultanın "Naxçıvan Muxtar Respublikasında jurnalist ixtisası üzrə kadr hazırlığının mövcud vəziyyəti", AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Şərqi-Rus" qəzeti ilə əlaqədar yeni araşdırmalar" mövzularında məruzələri dinlənilmişdir.

Məruzələrdə qeyd olunmuşdur ki, mətbuat bütün zamanlarda xalqın maariflənməsində, insanlar arasında ziya nurunun yayılmasında dəyərli vasitə olmuşdur. Məhz bu səbəbdəndir ki, milli mətbuatımızın yubileylərinin yüksək səviyyədə keçirilməsi dövlətimizin daim diqqət mərkəzindədir.

Bildirilmişdir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev demokratik inkişafı, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan milli jurnalistikası həmin dövrdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Ümummilli liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişafına ciddi diqqət yetirir. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması dövlət başçısının bu sahədə atdığı uğurlu addımların məntiqi davamıdır.

Qeyd olunmuşdur ki, müstəqillik illərinin əvvəllərindən başlayaraq bu günümüzə qədər mətbuatın inkişafı ilə bağlı Naxçıvanda həyata keçirilən tədbirlərə nəzər salsaq, görərik ki, bu istiqamətdə mühüm addımlar atılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 29 mart 2000-ci il tarixli Sərəncamından sonra kütləvi informasiya vasitələrinə göstərilən qayğı daha da artırılmışdır. Muxtar respublikamızda fəaliyyət göstərən şəhər və rayon qəzetləri müasir tələblərə cavab verən binalarda yerləşdirilmiş, "Şərq qapısı" qəzetinin həftədə 5, şəhər və rayon qəzetlərinin isə həftədə bir dəfə nəşrinə nail olunmuşdur.

Muxtar respublika mətbuatında çalışanların əməyi daim yüksək qiymətləndirilir. Onlardan 2-si Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, onlarla mətbuat işçisi müxtəlif orden və medallara layiq görülmüş, 36 nəfər isə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adları ilə təltif olunmuşdur. Muxtar respublikada jurnalistlərin bir araya gəlməsi və əlbir işi, səmərəli fəaliyyəti üçün 2005-ci ilin oktyabr ayında Naxçıvan Mətbuat Şurası təsis edilmişdir. Bu, regionda mətbuata göstərilən diqqət və qayğının, azad sözə verilən qiymətin bariz nümunəsidir.

Muxtar respublikamızda mətbuata qayğı ardıcıl şəkildə davam etdirilmiş, 2010-cu ildə yeni redaksiya-nəşriyyat kompleksi yaradılmış, qəzetlərin keyfiyyətli rəngli nəşri təmin olunmuşdur.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtar respublikanın mətbuat işçilərini 140 illik yubiley münasibətilə təbrik edərək konfransa yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Naxçıvan: intibahın 20 ili” mövzusuna həsr olunmuş rəsm sərgisi keçirilib.*

## Uşaqların əl işlərindən ibarət rəsm sərgisi



Rəsm sərgisinin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva gənc istedadların üzə çıxarılmasında belə sərgilərin əhəmiyyətli rol oynadığını bildirib.

Ülviyyə Həmzəyeva deyib ki, sərginin keçirilməsi əlamətdar bir günə – 14 iyula təsadüf edir. 1969-cu ildə məhz bu gün müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı olan ulu öndər Heydər Əliyev ölkəmizdə birinci dəfə siyasi hakimiyyətə gəlib.

“Ümummilli lider Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının daim inkişaf etməsini arzulayırdı. Bu gün Onun arzuları həyata keçirilir, ölkəmiz sürətlə inkişaf edir”, – deyən Ülviyyə Həmzəyeva qeyd edib ki, Naxçıvan Muxtar Respublikası 1995-ci ildən sonra sürətli inkişaf yoluna qədəm qoyub. Son 20 ildə muxtar respublikada ümummilli liderimizin siyasi xəttinin uğurla davam etdirilməsi bu qədim diyarı yeni inkişaf mərhələsinə yüksəldib. Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı, ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi yaradıcılıq təşkilatlarını, o cümlədən muxtar respublikanın Rəssamlar Birliyini də əhatə edib.

Vurğulanıb ki, yaradılan şərait rəssamların yaradıcılıq imkanlarının daha da genişlənməsinə səbəb olub. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda müvafiq ixtisaslar açılıb, məktəbəqədər tərbiyə müəssisələrində rəsm dərnəkləri yaradılıb.

Tədbirdə çıxış edən boks üzrə Avropa çempionu, Azərbaycanda keçirilən ilk Avropa Oyunlarının bürünc mükafatçısı Tayfur Əliyev və gənc yazıçı Səmayə Səma sərgi iştirakçılarına gələcək fəaliyyətlərində uğur və yeni-yeni nailiyyətlər arzulayıblar.

Sərgi iştirakçılarına Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin diplomları və gənc yazıçı Səmayə Səmanın kitabları təqdim edilib.

Sonra sərgiyə baxış olub.

Sərgidə 5-15 yaş qrupunda 49 uşağın yağlı və sulu boyalarla çəkilmiş rəsm əsərlərindən, qrafika, heykəltəraşlıq nümunələrindən, bəzək əşyaları və rəngli kağızlardan düzəldilən aplikasiyalardan, ekibanolardan ibarət 166 əsəri nümayiş etdirilir.

**Xəbərlər şöbəsi**

## I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib

***Dünən Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən cari ilin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirdi.***



İmtahan bütün binalarda eyni vaxtda – saat $11^{00}$-də başlandı və 3 saat davam etdi. Muxtar respublikada Naxçıvan şəhər 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən imtahanlarda 1206 abituriyent iştirak edirdi. İmtahana 118 nəzarətçi-müəllim, 10 imtahan rəhbəri cəlb olunmuşdu. Abituriyentlərin öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün bütün imtahan aparılan yerlərdə normal şərait yaradılmışdı.

İmtahan başlanmazdan əvvəl imtahan keçiriləcək məktəblərin önündə həyəcanlı görünən abituriyentlər, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. 7 nömrəli tam orta məktəbdə imtahanlarda iştirak edəcək Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin məzunu Məhərrəm Mustafayev dedi ki, bir azdan imtahanların başlanacağı xəbəri onu bir az həyəcanlandırıb. Ancaq o, əmindir ki, imtahan zalında həyəcanına qalib gələ biləcək, gələcəyi üçün mühüm mərhələ olan bu imtahandan uğur qazanacaq, valideynlərinin və müəllimlərinin üzünü güldürəcək.

Övladının imtahanlara qatılması ilə əlaqədar həyəcanı üzündən oxunan Məhərrəmin anası Nahidə Əhmədova övladının ali təhsil almasının ən böyük arzusu olduğunu dilə gətirdi. Dedi ki, cəmiyyətin inkişafının əsasında duran ən mühüm amil insanın formalaşması, təlim və təhsil almasıdır. İnsanın bir şəxsiyyət kimi formalaşmasında aldığı təhsilin rolu böyükdür. Bir valideyn kimi övladımın gələcəyi ilə bağlı heç bir plan qurmamışam, təhsilin övladlarıma verə biləcəyim ən böyük hədiyyə olduğunu düşünmüşəm. İndi isə onun ali təhsil almasını çox arzu edirəm. Çünki oğlum ali təhsilli olarsa, yaxşı bir karyera qurub istədiyinə nail olmağa çalışacaq.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə imtahanlara qatılan Hülya Tağıyevanın babası Əsədulla Tağıyev nəvəsinə mənəvi dəstək olmaq üçün Ordubad rayonunun Vənənd kəndindən gəlmişdi. Sakitcə bir kənarda oturub nəvəsinin imtahandan çıxmasını gözləyirdi. Əsədulla dayı dedi ki, buraya nəvəsi Aysu və qızı Sevinc Tağıyeva ilə gəlib. İlk dəfə nəvəsi Aysu ali məktəbə qəbul olmaqla onları sevindirib. Aysu ali məktəbi uğurla başa vurub. İndi növbə Hülyanındır. Ondan da xoş xəbərlər eşitmək istəyir. İnanır ki, Hülya onun yaxşı təhsil alması üçün çəkilən zəhmətlərin qarşılığını birə-beş verəcək, qəbul imtahanlarında yaxşı nəticələr göstərəcək.

...Nəhayət, imtahan başa çatdı. İmtahandan yenicə çıxmış Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin məzunu Zülfünaz Əlməmmədovanın üzündə imtahanda keçirdiyi həyəcan və gərginliyin izləri açıq-aşkar görünürdü. Ancaq gözləri gülürdü. Bildirdi ki, imtahanda əsas amil olan sakitlik tam təmin edilmişdi. Bu da onun sualların əksəriyyətini dəqiq cavablandırmasına imkan verib.

Qeyd edək ki, imtahanda iştirak edən abituriyentlərin valideynləri və onların yaxınları üçün ərazidə ictimai iaşə xidməti də təşkil olunmuşdu.

Məlumat üçün bildirək ki, imtahanda təqdim olunmuş sualların düzgün cavabları TQDK-nın internet saytında yerləşdiriləcək. Nəticələr elan olunduqdan sonra abituriyentlər imtahan nəticələri ilə TQDK-nın internet saytında və ya iş nömrələrini bütün mobil operatorlardan 7727 nömrəsinə göndərməklə tanış ola bilərlər.

**✍ Səbuhi HÜSEYNOV**

*Azərbaycan milli mətbuatı — 140*

## Naxçıvan mətbuatı ötən əsrin 70-80-ci illərində

***(Əvvəli qəzetin 9 iyul 2015-ci il tarixli sayında)***

***“Şərq qapısı” qəzetinin həyatında 1970-ci ildən sonra yeni mərhələ başlanır. Keçən əsrin 70-80-ci illərində respublikamızın hər bir bölgəsində olduğu kimi, Naxçıvanda da mətbuatın inkişafına xüsusi diqqət və qayğı göstərilmiş, məhz bu dövrdə mətbuat işçilərinin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ötən əsrin 70-ci illərinin əvvəllərində Naxçıvanda redaksiya-nəşriyyat kompleksi inşa olunmuş, “Şərq qapısı” qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Bu dövrdə qəzet muxtar respublikanın ictimai-siyasi, sosial həyatının işıqlandırılmasında, qabaqcıl, yaradıcı və ziyalı adamların portretlərinin yaradılmasında, Naxçıvanın iqtisadi potensialının dirçəlişində və tərənnümündə mühüm rol oynamışdır. XX əsrin 70-80-ci illərində qəzetdə millilik prioritetləri önə çəkilmiş, dil, ədəbiyyat, mədəniyyət və tarixə həsr olunmuş, Azərbaycançılıq ideologiyasına xidmət edən yazılar da dərc edilmişdir.***

1971-ci ilin noyabr ayında Bakıda Azərbaycan jurnalistlərinin IV qurultayı keçirilmişdir. Qurultayda Azərbaycanın müxtəlif bölgələri ilə bərabər, Naxçıvanın mətbuat sahəsindəki vəziyyəti də təhlil süzgəcindən keçirilmişdir. Qurultayın gedişindən xəbər verən “Şərq qapısı” qəzetində oxuyuruq: “Muxtar respublikada bir vilayət, dörd rayon qəzeti nəşr olunur. Qəzet, radio və televiziya redaksiyalarında ixtisaslı və bacarıqlı jurnalistlər azdır”.

Azərbaycan jurnalistlərinin IV qurultayındakı tənqiddən sonra Naxçıvan mətbuatı nöqsanların təshihi üzərində işləməklə daha çox ədəbi və tənqidi yazılara öz səhifələrində yer ayırmağa başlamışdır. Qurultay ərəfəsində və sonra “Şərq qapısı” qəzetinin ayda bir dəfə olmaqla son səhifəsində “Mozalan” satirik buraxılışı işıq üzü görmüşdür. Maraqlı məqamlardan biri odur ki, tərif və mədhiyyəçilik üzərində qurulan totalitar sovet rejiminin aparıcı qüvvəsi olan məmurlar və cəmiyyət həyatındakı nöqsanlar sərbəst və açıq şəkildə satirik qələmin qüdrətilə ciddi şəkildə tənqid hədəfinə çevrilmişdir. Satirik gülüş felyeton, tapmaca, şeir, satirik monoloq və dialoqlar, izahlı lüğət, fotoreportajlar şəklində rəngarəng formada oxucuya təqdim olunurdu.

Naxçıvanda sovet hakimiyyətinin qurulmasının 50 illiyi mətbuatın yaranması ilə üst-üstə düşdüyündən həmin ildə “Şərq qapısı” qəzeti də 50-ci ildönümünü böyük təntənə ilə qeyd etmişdir.

Belə ki, qəzetin 1 yanvar 1972-ci il tarixli sayının ilk səhifəsində “Şərq qapısı” Naxçıvan Respublika qəzetinin “Şərəf Nişanı” ordeni ilə təltif edilməsi haqqında” 30 dekabr 1971-ci il tarixli fərman dərc olunmuşdur. Bu fərman 50 illik fəaliyyəti dövründə qəzetə və onun əməkdaşlarına verilən ən yüksək qiymət idi. Qeyd edək ki, “Şərq qapısı” qəzetinin 50 illik yubileyində ən yüksək dövlət mükafatı ilə qiymətləndirilməsi, qəzet əməkdaşlarının yüksək fəxri adlar alması məhz həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin qayğısı sayəsində mümkün olmuşdur.

“Şərq qapısı” qəzetinin 14 yanvar 1972-ci il tarixli 50 illik yubiley nömrəsi nəfis tərtibatı və rəngarəng informasiya zənginliyi ilə seçilir. Qəzetin ilk səhifəsində SSRİ Jurnalistlər İttifaqının və “Kommunist” qəzetinin idarə heyətlərinin təbrik məktublarının verilməsi “Şərq qapısı” qəzetinin ümumittifaq səviyyədə yüksək nüfuzundan xəbər verir.

“Şərq qapısı” qəzetinin 50 illik yubiley nömrəsində təqdim olunan “Danışır “Şərq qapısı”nın keçmiş redaktorları” bölməsi, ümumiyyətlə, qəzetin nəşri tarixinin araşdırıcıları üçün ən böyük mənbədir.

“Şərq qapısı” qəzetinə 1935-36-cı illərdə redaktorluq etmiş ilk qadın redaktor Məsudə Nuriyeva “Məsul vəzifə” başlıqlı məqaləsində redaktorluq vəzifəsinin məsuliyyətindən, o dövrdə redaksiyada və mətbəədə ixtisaslı kadrların və şəraitin olmadığı vaxtlarda əl naborundan istifadə etməklə kiçik formatda buraxılan qəzetin keçdiyi yüksək inkişaf yolundan bəhs edir. Maraqlı faktlardan biri Azərbaycanın tanınmış ziyalılarının qəzetə göndərdiyi təbrik məktublarıdır. Belə ziyalılardan Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti Həsən Abdullayevin “Ordenli diyarın ordenli qəzeti”, Xalq yazıçısı Mirzə İbrahimovun “Nurlu mayak”, Əziz Şərifin “Gözünüz aydın”, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru Məmmədcəfər Cəfərovun “Doğma qəzet”, Məmmədhüseyn Təhmasibin “Qədim diyarın səsi”, Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovanın “Gözünüz nurlu olsun, dostlar!”, respublikanın Xalq rəssamı Tahir Salahovun “Əməyin güzgüsü”, şair İslam Səfərlinin “İlk şeir beşiyim” başlıqlı təbrik məktubları qəzetdə dərc olunmuşdur. Azərbaycan Respublikasının Xalq rəssamı Tahir Salahov təbrik məktubunu belə yekunlaşdırmışdır: “Qoy, “Şərq qapısı”nın fəaliyyəti rəssam palitrası kimi əlvan boyalarla, şair ilhamlı nadir sözlərlə, bəstəkar royalı kimi nikbin və coşqun nəğmələrlə zəngin olsun”.

Muxtar respublikanın ayrı-ayrı rayonlarında dərc edilən “İşıqlı yol” (Şərur), “Yeni Ordubad” (Ordubad), “Zəfər” (Culfa) və “Qabaqcıl” (Şahbuz) qəzetləri adından “Şərq qapısı” qəzetinə ünvanlanan geniş təbrik məktubu da son səhifədə dərc edilmişdir. “Şərq qapısı” qəzetinin növbəti sayında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin, Naxçıvan MSSR Nazirlər Sovetinin qəzetin 50 illiyi münasibətilə təbrik məktubu çap olunmuşdur. Məktubda deyilir: “Şərq qapısı”nın səsi muxtar respublikamızın hüdudlarını aşmışdır. Qoy Naxçıvanda ilk Azərbaycan sovet mətbuatının təməlini qoymuş bu qəzetin səsi daha uzaqlardan gəlsin”.

Həmin nömrədə “Şərq qapısı” qəzetinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaq haqda məlumat verilir. Məqalədən aydın olur ki, 14 yanvar 1972-ci ildə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında təntənəli yığıncaq keçirilmişdir.

Yubiley mərasimində muxtar respublika ictimaiyyətinin nümayəndələri, mətbuat, televiziya və radio işçiləri, Bakı, Dağıstan və Dağlıq Qarabağdan gəlmiş qonaqlar iştirak etmişlər.

Ümumiyyətlə, hər nömrəsi ensiklopedik xarakter daşıyan “Şərq qapısı” qəzetinin 50 illik yubileyi nəinki qəzet əməkdaşlarının, eyni zamanda muxtar respublikanın bütün yaradıcı insanlarının bayramına çevrilmiş, mətbuat tarixində böyük əhəmiyyəti ilə yadda qalmışdır.

XX əsrin 70-ci illərində “Şərq qapısı” öz rəngarəngliyi, böyük formatda nəşri ilə diqqəti cəlb edir.

Böyük inkişaf yolu keçən qəzetin tarixində 1980-ci il yeni bir mərhələnin başlanğıcını qoyur. Azərbaycan KP MK-nın 25 sentyabr 1979-cu il tarixli qərarı ilə qəzetə “Sovet Naxçıvanı” adı verilir. 30 oktyabr 1979-cu ildən isə Azərbaycan KP MK-nın 19 №li büro protokoluna əsasən, Mərkəzi Komitənin Azərbaycanda və Özbəkistanda çıxan yerli qəzetlərin yanvar ayından rus dilində dublikatının çıxarılması barədə qərarını əsas tutaraq “Sovet Naxçıvanı” qəzetinin rus dilində 5000 tirajla “Sovetskaya Naxiçevan” başlıqlı dublikatı çıxmağa başlayır.

1981-ci ilin dekabrında “Şərq qapısı” qəzeti özünün 60 illik yubileyini qeyd edir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1981-ci il 25 dekabr tarixli fərmanla birinci nömrəsinin çapdan çıxmasının 60 illiyi ilə əlaqədar olaraq “Sovet Naxçıvanı” vilayət qəzetini Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edir.

Qəzetin 26 dekabr 1981-ci il tarixli yubiley nömrəsi rəngli və nəfis tərtibatı ilə seçilir. Qəzetin ilk səhifəsində Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi, Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti və Naxçıvan MSSR Nazirlər Sovetinin təbrik məktubu dərc edilmişdir.

Qəzetdə diqqətçəkən məqamlardan biri də SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Ali Sovetinin deputatı Rəşid Behbudovun təbrikidir: “Dünyanın hansı ölkəsində olsam, harda çıxış etsəm, qəlbim Azərbaycandan ayrılmır. İlhamım və həvəsim buradan çağlayıb gəlir. Onun hər guşəsi, xüsusilə qədim Naxçıvan torpağı şirin bir nəğmə kimi qəlbimin tellərində səslənir. Bu yerin qədirbilən, sənətsevər adamları qədim Naxçıvana əbədi gənclik və gözəllik bəxş etmişlər. Bu gün Naxçıvan torpağının 60 yaşlı qəzetini ürəkdən təbrik etməklə deyirəm: gözəl muxtar respublikanın üç ordenli bayrağı daha yüksək zirvələrdə dalğalansın. Mən harda olsam, hara getsəm səninlə fəxr edəcəyəm, doğma Naxçıvanım”.

Yubileylə bağlı Azərbaycanın Xalq yazıçısı Mirzə İbrahimov, filologiya elmləri namizədi, dosent Lətif Hüseynzadə, professor Əziz Şərif, yazıçı-jurnalist Qulam Məmmədli, Xalq yazıçısı Əli Vəliyev qəzetə təbrik məktubları ünvanlamışlar.

1989-cu il oktyabrın 24-dən qəzetin əvvəlki tarixi adı –“Şərq qapısı” özünə qaytarılır. “Şərq qapısı” qəzeti Sovet İttifaqının dağılması ilə öz tarixində yeni mərhələyə qədəm qoyur.

*(Ardı var)*

**Surə SEYİD**
*filologiya üzrə fəlsəfə doktoru*

## Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təlim-seminarlar keçirilir



Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasına nail olmaqla onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində defektoloji bölmə, kinekt və əmək terapiyası otaqları, Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılıb. Defektoloji bölmənin, həmçinin bərpa mərkəzlərinin müvafiq mütəxəssislərinin iş təcrübəsinin artırılması daim diqqət mərkəzində saxlanılır və bu məqsədlə onlar müvafiq kurslara, həmçinin distant təlimlərə cəlb edilirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası bu kateqoriyadan olan uşaqların müasir tələblər səviyyəsində təhsil alması baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil etdiyi təlim-seminarlar dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədi daşıyır. Seminarları Bakı Şəhər Nitq İnkişaf Mərkəzinin defektoloq-loqopedi Esmira Kazımova aparır.

Təlim-seminara cəlb olunan defektoloji bölmənin müəllim-defektoloqlarına, bərpa mərkəzlərinin müvafiq mütəxəssislərinə, həmçinin serebral iflicli və autizm sindromlu uşaqların valideynlərinə "Uşaq serebral iflici və nitq" və "Autizm sindromlu uşaqlar" mövzuları tədris olunur, eyni zamanda defektoloji bölmədə reabilitasiyaya cəlb olunan 38 sağlamlıq imkanları məhdud uşaqlarla fərdi qaydada təlim-məşğələlər keçirilir.

Seminarların təşkilində məqsəd sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyəsi işinə məsul mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması, valideynlərə uşaqları ilə bağlı (davranış, ünsiyyət qurma bacarığının inkişafı və sair) məsləhət xidmətinin göstərilməsi, nəticədə, bu kateqoriyadan olan uşaqların həyat və təhsil mühitinə inteqrasiyasına nail olmaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Məqsədlərinə çatmaq üçün dayanmadan məşq edən, bunun bəhrəsini dəfələrlə görən, Naxçıvan Muxtar Respublikasının fəxri, həmçinin ölkənin sağlam gələcəyinə nümunə ola biləcək boksçu – Tayfur Əliyev. Onun haqqında kifayət qədər danışmaq, yazmaq mümkündür. Lakin bu dəfə Tayfur Əliyevə suallar ünvanladıq, danışan isə o oldu.*

## Tayfur Əliyev: Əsas məqsədim Braziliyada keçiriləcək Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaqdır



***– Azərbaycanın idman ictimaiyyəti Tayfur Əliyevi "Bakı-2015" birinci Avropa Oyunlarından sonra daha çox tanımağa başladı. Buna kimi qazandığın uğurlar barədə oxuculara məlumat verməyi xahiş edirik.***

– İlk dəfə 2009-cu ildə yeniyetmələr arasında Azərbaycan çempionatına qatıldım və gümüş medal qazandım. Bir il sonra eyni yarışda istəyimə çataraq qızıl medal əldə etdim. Uğurumun davam edəcəyini bilirdim və Avropa çempionatına vəsiqəni təmin etdim. 2011-ci ildə Qroznıda keçirilən boks üzrə yarışda yeniyetmələr arasında Avropa çempionu, 2013-cü ildə isə gənclər arasında Anapada keçirilən Avropa birinciliyində ikinci oldum. Hər il keçirilən "Prezident Kuboku"nu qazandım, bir il sonra bu turnirin ən yaxşı boksçusu adına sahib oldum. Bu il ilk dəfə kişilər arasında Azərbaycan çempionatına qatıldım və qalib oldum. Boksla məşğul olduğum dövr ərzində yeniyetmə və gənclər arasında 6, kişilər arasında isə bir dəfə Azərbaycan çempionu olmuşam. Son çempionluğum isə mənə Avropa Oyunlarında iştirak etmək hüququ qazandırdı.

***– "Bakı-2015" ilk Avropa Oyunları karyeranda necə bir iz buraxdı?***

– Avropa Oyunları mənim karyeramda böyük hadisə kimi heç bir zaman yaddaşımdan silinməyəcək. Belə mötəbər turnirdə çıxış etdiyim üçün qürur hissi keçirirəm və özümü şanslı sayıram. Buradakı döyüşlərim çox çətin idi. Əvvəldən sonadək təcrübəli boksçularla qarşılaşdım. Həmçinin yaşda da məndən böyük idilər. Bürünc medal qazansam da, həvəsdən düşmürəm. Çünki bizim qarşıda önəmli yarışlarımız var. Avropa Oyunlarında qazandığım təcrübədən bilirəm ki, bu cür yarışlarda daha yaxşı çıxış edəcəyəm. Bu təcrübə mənim üçün çox önəmli idi. Milli komandaya yeni qoşulmuşam. Qarşıdan dünya çempionatı, Yay Olimpiya Oyunları gəlir. Buradakı təcrübəmlə növbəti yarışlarda daha inamlı çıxış edəcək və birinci olmağa çalışacağam.

***– Qeyd etdin ki, döyüşlərin çox çətin keçdi. Gəl, elə 1/8 finaldan başlayaraq döyüşləri analiz edək. Rinqdə döyüşünün bir qədər asan alınması üçün nə çatmırdı?***

– Təcrübə. Əslində, rəqibimin kimliyinin və ya güclü, zəif olmasının mənim üçün problemi yoxdur. Onların daha çox təcrübəli olması mənim döyüşümə təsir göstərdi. Siz 1/8 finaldan başlayaq dediniz, mənsə, ilk olaraq yarımfinalda məğlub olduğum Bəxtovar Nazirovla keçirdiyim görüşdən başlamaq istəyirəm.

***– Fikirlərinə məğlub olduğun döyüşdən başlamaq maraqlıdır.***

– Rusiyalı boksçu bütün görüşlərimə baxmışdı, mənə qarşı necə döyüşməli olduğunu bilirdi. Yalnız kəllə vurmaqla, dirsək atmaqla məni zədələyə bilərdi. Deyərdim ki, bunu da bacardı və ikinci dəfə qaşım zədələndi. İlk döyüşümdə də rumıniyalı boksçunun dirsəyi dəymişdi, zədə almışdım və bu dəfə eyni yerdən zədələndim. Bu, yumruqla olan bir şey deyildi. Məşqçilərin verdiyi tapşırıqları yerinə yetirdim. Bu görüşdə daha çox döyüşmək istəyirdim, amma mənə elə gəlirdi ki, o, vuruşmaq istəmirdi. Aqressiv idi. Bilirəm ki, döyüş taktikası baxımından rus rəqibimə uduzmadım. Yenə deyirəm, təcrübəsizlik burda da özünü göstərdi. Amma söz verirəm ki, nə vaxtsa onunla qarşılaşsam, qələbə qazanacağam. İlk görüşümə gəlincə, mübarizəyə 1/8 finaldan qoşuldum və rumıniyalı Nikolae Andreiana ilə üz-üzə gəldim. Qələbə qazansam da, döyüşümdən özümün də xoşum gəlmədi. Çünki səhvim çox oldu. Sonra həmin döyüşə baxdım və oradakı səhvlərimi növbəti döyüşlərdə təkrar etmədim. 1/4 finalda Danimarka boksçusu Fredrik Yensenlə döyüşümdən öncə səhvləri təhlil etdim və nəticədə, qalib gəldim. Lakin bu döyüşdə də texniki səhvlərim oldu. Qalib gəldikdən sonra özümə inamım artdı.

***– Avropa Oyunlarında boks üzrə milli komandaya dəvət hər idmançıya nəsib olmur. Səncə, məşqçinin etimadını doğrulda bildinmi?***

– Bu mötəbər yarışda heyətə düşənə kimi qarşımdakı bütün sınaqları keçmişdim. Azərbaycan çempionu adını qazandım, İtaliya və Meksikada keçirilən təlim-məşq toplanışında iştirak etdim, həmçinin "Böyük İpək Yolu" turnirində qalib oldum. Bu uğurum, yəqin ki, baş məşqçinin diqqətindən yayınmayıb.

***– Avropa Oyunlarında qızıl medala yaxın olsan da, bürünc medal qazandın. Bu, 18 yaşlı boksçu üçün uğurlu bir nəticədir. Bəs qazandığın medal barədə nə düşünürsən?***

– Etiraf edim ki, Avropa Oyunlarından sonra bu barədə düşünməmişəm ki, yaşım azdır, bu, mənim üçün böyük uğurdur. Mənim üçün kişilər arasında Azərbaycan çempionu olmaq, sonra belə böyük yarışda bürünc medal qazanmaq böyük fəxrdir.

***– Tayfur Əliyev üçün ən böyük hədəf nədir?***

– Qazanmaq istədiyim, nail olmaq arzusunda olduğum titullar da çoxdur. Artıq bunların birini həyata keçirdim və Avropa Oyunlarında bürünc medal qazandım. İndi əsas məqsədim Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaqdır. Buna nail olacağıma inanıram. Çünki muxtar respublikada biz idmançılar üçün hər bir şərait yaradılıb.

***– "Bakı-2015" ilk Avropa Oyunlarından sonra Ali Məclisin Sədri ilə görüş keçirildi...***

– Bəli. Naxçıvana qayıtdıqdan sonra Ali Məclisin Sədri cənab Vasif Talıbovla görüş keçirildi və birinci Avropa Oyunlarında bürünc medal qazanaraq ölkəmizin idman şərəfini layiqincə qoruduğuma görə Ali Məclisin Sədri tərəfindən mənə "Naxçıvan Muxtar Respublikasının 85 illiyi" yubiley qızıl medalı təqdim edildi. İdmanın inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan idmançıları və gəncləri adından muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu

### *prokurorluğa işə qəbulla əlaqədar müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikası Prokurorluğu Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu orqanlarında işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 10 ştat vahidi üzrə müsabiqə elan edir.

Prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər aşağıda qeyd edilən sənədləri təqdim etməklə Naxçıvan Muxtar Respublikası Prokurorluğuna müraciət edə bilərlər:

*1. Müəyyən olunmuş formada ərizə*

*2. Şəxsiyyət vəsiqəsinin təsdiq olunmuş (notarial qaydada) surəti*

*3. Tərcümeyi-hal və kadrlar uçotuna dair anket (blanklar prokurorluqda verilir)*

*4. 3x4 və 4x6 sm ölçülərdə hər birindən 4 ədəd ağ fonda rəngli fotoşəkil*

*5. Ali təhsil barədə (hüquqşünaslıq ixtisası üzrə) diplomun və diploma əlavənin təsdiq olunmuş (notarial qaydada) surəti*

*6. Əmək kitabçasının təsdiq olunmuş (notarial qaydada və yaxud iş yeri üzrə) surəti*

*7. Yaşadığı ünvan üzrə poliklinikadan (forma №86), Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserindən sağlamlıq və narkoloji qeydiyyatda olub-olmadığı barədə arayışlar*

*8. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış*

*9. Yaşadığı ünvan üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumlarında qeydiyyatda olması və həqiqi hərbi xidmət keçməsi barədə arayış, hərbi biletin əsli və notarial qaydada təsdiq olunmuş surəti.*

Sənədlər Naxçıvan şəhəri, Atatürk küçəsi, 22-də yerləşən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasının qəbul otağında 2015-ci il avqust ayının 1-dən sentyabr ayının 1-dək hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır.

Prokurorluğa işə qəbul olunmaq üçün sənədlərini təqdim etmək istəyən hər bir namizədin hazırlığının, bilik səviyyəsinin, ümumi dünyagörüşünün, prokuror və ya müstəntiq vəzifəsinə yararlılığı və layiqliyinin müəyyən edilməsi məqsədilə tam aşkarlıq şəraitində, şəffaf üsullarla, beynəlxalq tələblərə uyğun keçirilən ixtisas imtahanları (test və yazılı imtahanlar) və müsahibədən ibarət müsabiqə təşkil ediləcək. Test imtahanı Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi ilə birgə keçiriləcəkdir. Müsabiqədə bərabər nəticələr əldə etmiş şəxslərdən xarici dilləri mükəmməl bilənlərə üstünlük veriləcəkdir.

Prokurorluğa işə qəbul olunmaq üçün sənədlərini təqdim etmək istəyən şəxslərin nəzərinə çatdırılır ki, onların ali hüquq təhsili Azərbaycan Respublikası ərazisində müvafiq qaydada tanınan diploma təsdiq edilməli, onlar Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli və seçkilərdə iştirak etmək hüququna malik olmalıdırlar. Prokurorluğa 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, aşağıdakılar prokurorluğa işə qəbul edilmirlər:

*- ikili vətəndaşlığı olan şəxslər;*

*- digər dövlətlər qarşısında öhdəlikləri olanlar;*

*- din xadimləri;*

*- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə prokuror və ya prokurorluğun müstəntiqi vəzifələrini yerinə yetirməyə qadir olmayan şəxslər;*

*- alkoqolizm, narkomaniya, toksikomaniya, digər ağır xəstəliklərə tutulmuş şəxslər (bu barədə həkim rəyi olduqda);*

*- əvvəllər məhkum olunmuş və ya bəraətverici əsaslar olmadan barəsində cinayət işinin icraatına xitam verilmiş şəxslər;*

*- əvvəllər yol verdiyi kobud nöqsanlara və ya prokuror və müstəntiq adı ilə bir araya sığmayan hərəkətlərə görə vəzifədən azad edilmiş şəxslər;*

*- qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar.*

Müsabiqənin test imtahanının yekunlarına görə, 70 və daha artıq bal toplamış namizədlər yazılı imtahana buraxılırlar.

Test imtahanının vaxtı, yeri, imtahan suallarının hazırlanmasında istifadə edilmiş qanunların siyahısı və digər məlumatlar barədə əlavə məlumat veriləcəkdir.

***Əlavə məlumatlar almaq üçün 545-03-14, 545-03-15 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 543